

Dünən 12 yanvar tarixində Marneuli rayon Qızılhacılı kəndində Anası tərəfindən bicaqla ciddi xəsarətlər almış 30 yaşlı qızın vəziyyəti sabit olaraq qalmaqdadır.

Həkimlər hal-hazırda 30 yaşlı qızın vəziyyətini sabit olaraq qiymətləndirir.

Həkimlərin verdiyi məlumata görə, 12 yanvar tarixində üç bıçaq zərbəsinə məruz qalan gənc qız nəticədə: Boğaz və sinə nahiyələrindən üç bıçaq yarası alıb. O xəstəxanaya gətirildikdə vəziyyəti son dərəcədə ciddi idi və təcili əməliyyat keçirildi.

Həkimlər hal-hazırda yaralanmış qızın vəziyyətini, sabit olaraq qiymətləndirir.

Qonşuların Rustav2 kanalına dediklərinə görə, Qız evlidir. Tez-tez ana və övladı arasında ailə münaqişəsi baş verirdi. Ana qızının bəzi davranışlarını bəyənmirdi. O, həmişə övladına xəbərdarlıq edirdi, yəqin ki, dözməyib hirsinə qapılıb və cəzalandırıb. -Deyib qonşular

Polis hadisəni törətməkdə şübhəli bilinən qadını saxlayıb. Daxili İşlər Nazirliyi qəsdən sağlamlığa ağır zərər vurma və ailə zorakılığı maddələri üzrə cinayət işi açıb. Təqsirləndirilən şəxsi 3 ildən 6 ilə qədər həbs cəzası gözləyir.

Məlumat üçün xatırladaq ki, dünən 12 yanvar tarixində səhər saatlarında Marneuli rayon Qızılhacılı kəndində ana öz doğma qızını ailə münaqişəsi zəmnində bicaqla xəsarətlər yetirib.